# Dini qurumların fəaliyyəti və etik davranışı barədə tövsiyələr

## Önsöz

Terrorçuluğun və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə üzrə beynəlxalq standartlar - FATF tövsiyələrinə əsasən dövlətlər qeyri-kommersiya təşkilatlarının idarə edilməsində şəffaflıq, vicdanlılıq və ictimai etimadın təmin edilməsi üçün aydın siyasətlərə malik olmalıdırlar.

Dini qurumlar dünya iqtisadiyyatında, bəzi dövlətlərin iqtisadi və sosial həyatında əhəmiyyətli təsirə malikdirlər. Bu amillər, həmçinin, bir sıra emosional və ideoloji səbəblər onların belə məsələlərdə həssas kateqoriyaya aid edilməsinə əsas verir. Dini qurumlara ictimai etimadın yüksək olması və maliyyə mənbələrinə çıxışlarının mövcudluğu terrorçu təşkilatların onların bu xüsusiyyətlərindən yararlanmasına, terrorçuluq fəaliyyətinin ört-basdır edilməsi və ya dəstəklənməsi üçün istifadə edilməsinə şərait yaradır.

Dini qurumların terrorçular tərəfindən sui-istifadə edilməsindən qoruması məqsədilə qəbul edilən tədbirlər qanuni olmalı, xeyriyyəçilik fəaliyyətinə maneə törətməməli və ya belə fəaliyyətlərin təşkili ilə bağlı motivasiyanın azalmasına səbəb olmamalıdır. Əksinə, bu tədbirlər şəffaflığı təşviq etməli, xeyriyyə vəsaitləri və xidmətlərinin benefisiarlarına gəlib çatmasına, donorlar və ictimaiyyət arasında etimadın artmasına səbəb olmalıdır. Dini qurumların idarəetmə və fəaliyyətində yüksək şəffaflıq, vicdanlılıq və ictimai etimad səviyyəsinin əldə edilməsinə dəstək olan mexanizmlər bu sektorun terrorçuluğun maliyyələşdirilməsi məqsədilə istifadəsinin qarşısının alınmasına yönəlmiş tədbirlərin tərkib hissəsidir.

Bu sahədə etik qaydaların və davranış normalarının tətbiqi yalnız dini qurumlar üçün sözügedən istiqamətdə yoxlamanı təmin etmir, həm də benefisiarlar, donorlar və ictimaiyyət qarşısında dini qurumların yüksək standartların saxlanmasının vacibliyinə ciddi yanaşıldığını göstərir. Belə normalar məsuliyyətsiz dini qurumları müəyyən etməyə, onlarla əməkdaşlığın mənfi təsirlərini aşkarlamağa kömək edə bilər.

Qeyd edilənləri nəzərə alaraq, dini qurumlar üçün cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində dini qurumların fəaliyyəti və etik davranışı barədə tövsiyələr hazırlanmışdır.

Bu tövsiyələr dini qurumların sözügedən sahədə məlumatlandırılması və müəyyən dərəcədə işinə bələdçilik etmək məqsədi daşıyır.

## I. Rəhbər prinsiplər

Hər bir dini qurum açıq şəkildə yaxud dolayısı ilə ifadə olunan, fundamental prinsiplər əsasında fəaliyyət göstərir. Tədqiqatlar ümumbəşəri hörmətə malik təşkilatlar arasında bu prinsiplərdə böyük oxşarlıqlar olduğunu aşkar edir. Geniş və əhatəli fəaliyyət sahəsi olan bütün dini qurumlar eyni fundamental prinsipləri və ya inancları bölüşməyə meyillidirlər.

Bu fundamental prinsiplərdən daha vacibləri aşağıda qeyd olunmuşdur:

**A. Məsuliyyət, xidmət və ictimai fikir**

Davamlı tərəqqi, sülh və ədalət cəmiyyətin ümumi mənafeyinə bütün dini qurumların töhfə verməsini tələb edir. Buna görə də, dini qurum özünü inkişaf etdirməli, xeyirxahlığı ön planda saxlamalı, fərdi, eyni zamanda ictimai narahatlıqları tarazlaşdıraraq, diqqəti daha yüksək və geniş ictimai xidmət səviyyələrinə yönəltməlidir. Onlar fəaliyyətlərini məsuliyyətlə davam etdirərək, bunu istər geniş ictimaiyyət, istərsə də müəyyən bir təbəqə naminə həyata keçirməlidirlər. Eyni zamanda əldə etdikləri imkanlardan, o cümlədən, dövlətin maliyyəsindən şəxsi maraqları üçün sui-istifadə etməməli və dövlət əmlakına ictimai etimad kimi son dərəcə ciddi yanaşmalıdırlar.

**B. Beynəlxalq əməkdaşlıq**

İnsanları bir-birindən ayıran siyasəti və etnik maneələri aşaraq dinlər, mədəniyyətlər və irqlər arasında əməkdaşlığı gücləndirəcək fəaliyyətlə dünyada sülh və rifahın inkişafında əhəmiyyətli irəliləyişə nail olmaq mümkündür. Dini qurumlar ölkə daxilindəki və xaricindəki digər dini qurumlarla əməkdaşlıq münasibətləri saxlamalı və daha böyük ictimai rifah naminə tərəfdaşlıq etməlidirlər.

Dini qurum siyasət, din, mədəniyyət, irq və etnik mənsubiyyətin hüdudlarından kənarda, ümumi dəyərləri və məqsədləri paylaşan təşkilatlar və şəxslərlə nizamnamə məqsədlərinə uyğun işləməyə hazır olmalıdır.

**C. İnsan hüquqları və ləyaqəti**

Dini qurum insanların hüquq və azadlıqlarını pozmamalıdır. Onlar bütün insanların azad və ləyaqət baxımından bərabər olduğunu qəbul etməlidir. Dini qurumlar xidmət etdiyi icmaların mənəvi dəyərlərinə, dininə, adət-ənənələrinə və mədəniyyətinə həssas olmalıdır. Həmçinin, ailə dəyərlərinə, ailələrin bütövlüyünə hörmət etməli və ailə həyatını dəstəkləməlidir.

**D. Dini etiqad azadlığına hörmət**

Dini qurumlar dini azadlıqlara hörmət etməlidirlər. Heç kəs öz dini etiqadını ifadə etməyə (nümayiş etdirməyə) məcbur edilməməli, dini etiqadın və dini həyat tərzinin irqi, milli, dini, sosial ədavət və düşmənçilik yaratmaq məqsədi ilə təbliğinə yol verməməlidir.

**E. Şəffaflıq və hesabatlılıq**

Dini qurumlar daxildə, eləcə də donorlara və ictimaiyyət üzvlərinə münasibətdə şəffaf fəaliyyət göstərməlidirlər. Dövri hesabatlılığı təmin etməlidirlər.

Dini qurumlar dövlət qurumları, ictimaiyyət, donorlar, tərəfdaşlar, benefisiarlar və digər maraqlı tərəflərlə bütün işlərində şəffaf olmalıdırlar.

Dini qurumların əsas maliyyə məlumatları, idarəetmə strukturu, fəaliyyəti, tərəfdaşlarının siyahısı açıq və ictimai nəzarət üçün əlçatan olmalıdır, eyni zamanda dini qurum öz işi, resurslarının mənşəyi və istifadəsi haqqında ictimaiyyəti məlumatlandırmaq üçün səy göstərməlidir.

Dini qurumlar öz hərəkətləri eyni zamanda qərarları üçün təkcə maliyyə qurumları və hökumət qarşısında deyil, həm də xidmət etdiyi insanlar, onun işçi heyəti, üzvləri, tərəfdaş təşkilatlar, habelə bütövlükdə ictimaiyyət qarşısında cavabdeh olmalıdır.

**F. Doğruluq və qanunilik**

Dini qurum təsisçiləri, donorları, işçi heyəti, tərəfdaş təşkilatlar, aidiyyəti dövlət orqanları və ictimaiyyətlə münasibətlərində dürüst olmalı və qanunlara hörmət etməlidir.

## II. Dini qurumun bütövlüyü

Hər bir dini qurumun əsas xüsusiyyəti onun könüllü, mütəşəkkil, müstəqil, özünüidarəedən və qeyri-kommersiya təşkilatı olmasıdır. Bu ümumi meyarlar dini qurumun dürüstlüyü və davranışı üçün əsas göstəricidir.

**A. Qeyri-kommersiya**:

1. Dini qurum qeyri-kommersiya təşkilatı kimi təsis edilməli və fəaliyyət göstərməlidir. Əldə olunan gəlirlər dini icmanın qanunla qadağan olunmayan məqsədlərini yerinə yetirmək üçün istifadə edilməlidir.

2. Dini qurum, onun nizamnaməsi ilə bəyan edilmiş məqsədlərilə əlaqəsi olmayan kommersiya fəaliyyəti ilə məşğul olmamalıdır.

3. Dini qurumun idarə olunması qaydaları təşkilatın həm digər şəxslərlə münasibəti, həm də ləğvi zamanı mənfəət, mülk və ya aktivlərinin fiziki şəxslərin xeyrinə bölüşdürməsinin qarşısını almalıdır.

**B. Mütəşəkkil**

Dini qurumun təsis sənədləri, ali idarəetmə və icra orqanı, məsul işçiləri olmalı, müntəzəm iclasları, eyni zamanda tədbirləri keçirilməlidir.

Dini qurumun nizamnaməsində adı və yerləşdiyi yer, təsis edilməsi və fəaliyyətinin məqsədləri, idarəetmənin təşkili forması, nizamnamənin qəbulu, ona əlavə və dəyişikliklərin edilməsi qaydası, ləğv edilməsi, ləğv edildiyi halda əmlakından istifadə qaydası müəyyən edilməlidir.

**D. Müstəqil və özünüidarəedən**

1. Dini qurum müstəqil fəaliyyət göstərir. Onun fəaliyyəti heç bir kommersiya təşkilatı, donor, dövlət orqanı, siyasi partiya və ya digər dini qurum tərəfindən müəyyən edilməməlidir.

2. Dini qurum özü üçün seçdiyi idarəetmə strukturuna uyğun formada özünü müstəqil idarə edərək fəaliyyətinə nəzarət etməlidir.

**E. Könüllü**

Dini qurumlar dini tələbatı ödəmək məqsədilə (ibadət, xeyriyyəçilik və s.), habelə, ümumi maraq əsasında könüllülük prinsipi ilə yaradılır. Könüllülük dəyərlərinin qorunub saxlanması dini qurumun işində əsas meyar olaraq qalmalıdır.

Dini qurumun ali idarəetmə orqanının üzvləri heç bir ödəniş tələb etmədən könüllü olaraq fəaliyyət göstərməlidir. Dini qurum öz nizamnamə məqsədlərinə nail olmaq üçün könüllülərlə əməkdaşlıq etməlidir.

## III. Məqsəd və fəaliyyətlər

Dini qurumun məqsədi onun mövcud olmasının səbəbi və ya nəyə nail olmaq istəyini ifadə edir. Dini qurumların öz məqsədini aydın şəkildə müəyyənləşdirmək və ifadə etmək, qarşıya qoyduğu məqsədə çatmaq üçün resurslarından səmərəli şəkildə istifadə etmək öhdəliyi var.

**A. Missiya**

1. Dini qurumun nizamnaməsində fəaliyyəti istiqamətləri daimi əsaslarla və ya konkret məqsəd naminə təsis edildiyi müəyyən olunmalıdır. Dini qurumun mövcudluğunun səbəbləri və hədəfləri açıq şəkildə göstərilməlidir.
2. Təsisçiləri, xüsusilə ali idarəetmə orqanının üzvləri dini qurum fəaliyyətinin məqsədlərini tam başa düşməli və dəstəkləməlidir.
3. Dini qurumların fəaliyyət məqsədləri bütün üzvlər, işçilər, tərəfdaşlar, donorlar, layihə benefisiarları və ictimaiyyət üçün açıqlanmalıdır.
4. Dini qurumların fəaliyyət məqsədlərinin aktuallığı vaxtaşırı (iki və ya üç ildən bir) nəzərdən keçirilməlidir.

**B. Fəaliyyətlər**

1. Dini qurumun fəaliyyətləri məqsədlərinə uyğun olmalıdır. Dini qurumun diqqəti məqsədlərinin yerinə yetirilməsinə yönəldilməlidir.
2. Dini qurumun proqramları onun bəyan etdiyi məqsədlərə nail olmağa xidmət etməli, səmərəli, əsaslandırılmış və konkret müddətə nəzərdə tutulmalıdır.
3. Dini qurumun fəaliyyətinin məqsədləri, səmərəliliyi, effektivliyi, proqramların davam etdirilməsi, onlara yenidən baxılması, yeni proqramlara olan ehtiyacın müəyyən edilməsi üçün vaxtaşırı yoxlanılmalıdır. Qiymətləndirmələr açıq və dürüst olmalı və maraqlı tərəflərin rəyini ehtiva etməlidir.

## IV. İdarəetmə

Effektiv idarəetmə strukturu, güclü, fəal və sadiq idarəetmə orqanı dini qurumun möhkəmliyi və öz məqsədlərinə nail olmaq qabiliyyəti üçün çox vacibdir. Dini qurumların idarəetmə orqanı təşkilatın bütün fəaliyyətləri və resursları üçün məsuliyyət daşıyır, həmçinin fəaliyyət istiqamətini müəyyənləşdirir və onların məqsədəuyğunluğuna nəzarəti həyata keçirir.

**A. İdarəetmə strukturu**

1. Dini qurum fəaliyyət məqsədlərini yerinə yetirməyə imkan verən, əsas dəyərlərini və mədəni standartlarını əks etdirən idarəetmə planını yaratmalıdır.
2. Dini qurumun strukturu, tərkibi, idarəetmə orqanlarının formalaşdırılması, səlahiyyəti, qərar qəbul etmə və qurumu təmsil etmə qaydaları müvafiq sənədlərdə aydın şəkildə göstərilməlidir.

**B. İdarəetmə orqanının strukturu**

1. Dini qurumun idarəetmə orqanı yaranma məqsədlərini həyata keçirmək üçün öz vaxtını və enerjisini könüllü sərf etməyə hazır olan, təşkilata əhəmiyyətli töhfələr verə bilən şəxslərdən ibarət olmalıdır.
2. İdarəetmə orqanlarının yaxın qohum olmayan üzvlərdən təşkil edilməsinə önəm verilməlidir.
3. İdarəetmə orqanına üzvlük üçün müddət limitləri müəyyən edilməlidir.

4. İdarəetmə orqanında işləmək üçün üzvlərin namizədliyinin irəli sürülməsi qaydası üzvlərə və digər aidiyyəti tərəflərə məlum olmalıdır.

5. Dini qurum icra orqanında təmsil olunmaq üçün geniş nümayəndə sayına malik olmalıdır.

6. İdarəetmə orqanının hər bir üzvü dini qurumun nizamnaməsi ilə tanış olmalıdır.

7. İdarəetmə orqanının üzvləri xidmətlərinə görə ödəniş ala bilməzlər.

**C. İdarəetmə orqanın məsuliyyəti**

1. İdarəetmə orqanı məqsədlərinin düzgünlüyünə və etibarlılığına zəruri halda yenidən baxaraq, dini qurumların fəaliyyət istiqamətini müəyyən edir.

2. İdarəetmə orqanı dini qurumların planlarını müəyyən etməli, onların fəaliyyət məqsədlərinə uyğunluğuna, effektivliyinə və səmərəliliyinə nəzarət etməlidir.

3. İdarəetmə orqanı dini qurumun fəaliyyət məqsədlərini yerinə yetirmək üçün lazımi resurslara malik olmasını təmin etməlidir.

4. İdarəetmə orqanı illik büdcəni təsdiq etməli və vəsaitin toplanması prosesində fəal iştirak etməlidir (mümkün olduğu təqdirdə).

5. İdarəetmə orqanı resursları səmərəli şəkildə idarə etməli və qanuni tələblərə nəzarəti təmin etməlidir.

6. İdarəetmə orqanı uzunmüddətli və qısamüddətli fəaliyyət planının hazırlanmasında, məqsəd və vəzifələrin həyata keçirilməsində fəal iştirak etməlidir.

7. İdarəetmə orqanının üzvləri dini qurumun fəailiyyət və məqsədlərini ictimaiyyətə açıqlayır və təşkilata ictimai dəstəyin cəlb olunmasına dəstək verməlidirlər.

**D. İdarəetmə orqanın davranışı**

1. İdarəetmə orqanı dini qurumun işini tam və adekvat şəkildə həyata keçirmək üçün mütəmadi iclaslar təşkil etməli, planlar və görülən işlərlə bağlı maraqlı tərəflərə məlumat verməlidir

2. İdarəetmə orqanının hər bir iclasının protokolları və hesabatları hazırlanmalı, dini qurumun təsisçilərinə təqdim edilməli və arxivləşdirilməlidir. Protokollar, həmçinin, personalın qiymətləndirilməsi və digər bu kimi məlumatlar (məxfi məlumatlar istisna olmaqla) ictimaiyyətə açıq olmalıdır.

3. İdarəetmə orqanı öz davranışlarına görə məsuliyyət daşıyır.

**E. Maraqların toqquşması**

1. İdarəetmə orqanının üzvləri təşkilatın məqsədlərini şəxsi məqsədlərdən, təşkilatın maraqlarını isə fərdi maraqlardan üstün tutmalıdırlar.

2. Rəhbər şəxslər (dini qurumun sədri) öz maraqlarına bilavasitə təsir edən məsələnin həllində (İdarəetmə orqana yenidən seçilmək, şəxsi mükafatlandırma və s.) iştirak etməməlidirlər.

3. Hər bir rəhbər potensial və faktiki maraq toqquşmalarını açıqlamalıdır (fəaliyyət məqsədləri üst-üstə düşən başqa dini qurumların idarə heyətində təmsil olunmaq). Bu cür açıqlamalarda etik amillər əsas gətirilərək istisnalara yol verilməməlidir.

## V. İnsan resursları

Sadiq, bacarıqlı və məsuliyyətli kadr dini qurumların uğuru üçün çox vacibdir. Bunun əsasını səmərəli insan resursları siyasəti təşkil edir. Dini qurumlar bunun üçün həm ödənişli işçilərə, həm də ödənişsiz könüllülərə müraciət etməlidirlər.

Dini qurumlar ixtisaslı kadrlar axtarmalı, onlara fərdi inkişaf üçün imkanlar yaratmalı, lazımi təlimlər keçməli, ədalətli yanaşmalı və fəaliyyətlərinə nəzarət etməlidirlər.

**A. Dini qurumların vəzifələri**

1. Dini qurum öz fəaliyyət məqsədlərinə uyğun bacarıqlı, məsuliyyətli işçilər və könüllülər axtarmalıdır.

2. Dini qurum yeni işçilər üçün lazımi təlim və fəaliyyət istiqaməti müəyyən etməli, onlara uyğun iş şəraiti yaratmalıdır.

3. Dini qurum fərdi və personalın inkişafı üçün imkanlar təmin etməli və işçilərin şəxsi inkişafının təşviq edildiyi atmosfer yaratmalıdır.

4. Bütün işçilərlə ədalətli davranılmalı, onlara hörmət edilməli və müdafiə hüququ təmin olunmalıdır. Onların birləşmək, vicdan və ifadə azadlığı hüquqlarına hörmət edilməli və qorunmalıdır.

5. Əsas heyətin ciddi narahatlıqları qurum daxilində həll edilməli və məhkəməyə şikayət etmək hüququna təminat verilməlidir.

**B. Maraqlar toqquşması**

1. Təsisçilər maraqların toqquşmasına səbəb ola biləcək hər bir halı açıqlamalıdır.

2. İşçi heyətin üzvləri xüsusi imtiyaz, qazanc və ya fayda əldə etmək üçün adi, yaxud könüllü vəzifələrindən istifadə etməməlidirlər.

3. İşçilər dini qurumun məqsədlərini şəxsi məqsədlərdən üstün tutmalıdırlar.

## VI. İctimai etimad

Etimadı yüksəltmək və qorumaq üçün hər bir dini qurum fəaliyyətində hesabatlılıq və şəffaflığı nümayiş etdirməli, o cümlədən ictimaiyyətə təqdim etdiyi məlumatlarda dürüst olmalıdır.

**A. Dini qurum haqqında ictimai məlumat**

1. Dini qurum haqqında məlumatlar donorlara, üzvlərə, əməkdaşlara, eyni zamanda ictimaiyyətə dəqiq və vaxtında təqdim edilməlidir.

2. Dini qurum ən azı ildə bir dəfə öz fəaliyyəti və xidmətləri haqqında məlumatı ictimaiyyətə təqdim etməli, həmin məlumatlara media subyektlərinin çıxışını təmin etməlidir.

3. Dini qurum hər il maliyyə mənbəyi, ondan istifadə, xidmətlər, layihələr, idarəetmə fəaliyyətləri və vəsaitlərin cəlb edilməsi üçün istifadə olunan mənbələri və s. barədə məlumatları ictimaiyyətə təqdim etməlidir. Eyni zamanda dini qurum müvafiq maliyyə sənədlərinə ictimaiyyətin çıxışını təmin etməlidir.

4. Dini qurum özünün idarəetmə orqanının və idarəetmə heyətinin adlarını təqdim etməli, idarəetmə orqanında baş verən dəyişiklikləri ictimaiyyətə çatdırmalı və idarəetmə orqanının iclaslarının müvafiq protokollarına çıxışı təmin etməlidir.

5. Dini qurum daxil olduğu müştərək və ya digər birgə müəssisələr haqqında məlumatı vaxtında və dəqiq şəkildə təqdim etməlidir.

6. Şəxslər fərdi olaraq bu hüquqdan imtina etmədikdə və ya qanunla açıqlama tələb olunmadıqda dini qurum təsisçilər və işçilər haqqında məlumatların məxfiliyini qorumalıdır.

7. Dini qurum özünü digər dini qurumlarla müqayisədə deyil, öz üstünlükləri ilə xarakterizə etməlidir. Digər dini qurumlarla əlaqələr tərəfdaşların hesabına özünə mənfəət yaratmaq məqsədi daşımamalıdır.

8. İctimaiyyətin dini qurum və onun fəaliyyəti ilə bağlı sorğu verməsi üçün şərait yaratmalıdır.

9. İctimaiyyətin məlumatlandırılması və bu istiqamətdə qanunvericiliyin təmin edilməsi üçün məsul şəxs müəyyən edilməlidir.

**B. İctimai vəkillik**

1. Dini qurumun ictimaiyyətə verdiyi məlumatlar dəqiq olmalı və lazımi kontekstlə təqdim edilməlidir.

2. Məlumatı ədalətli və qərəzsiz şəkildə təqdim etməlidir.

3. Dini qurumun bəyanatları onun faktiki səlahiyyətlərini əks etdirməlidir. Dini qurumların nizamnamələrində dövlət və yerli özünüidarə orqanlarının səlahiyyətlərinin mənimsənilməsinə, habelə dövlət nəzarəti və yoxlama funksiyalarının nəzərdə tutulmasına yol verilmir.

## VII. Maliyyə və hüquq

Dini qurumlar sağlam daxili maliyyə prosedurlarından istifadə etməli, maliyyə uçotunu diqqətlə aparmalı və maliyyə hesabatlarını ictimaiyyətə təqdim etməlidirlər. Onlar həmçinin təşkilatın qanuni və ümumi qəbul edilmiş mühasibat təcrübələrinə uyğun fəaliyyət göstərdiyini təsdiq edə bilən maliyyə hesabatlarına ixtisaslı ekspert tərəfindən vaxtaşırı baxılmasını təmin etməlidirlər. Dini qurumlar qanunlara riayət etməlidirlər.

**A. Maliyyə şəffaflığı və hesabatlılıq**

1. İdarəetmə orqanının üzvləri dini qurumların maliyyə hesabatlarının hazırlanmasında məsuliyyət daşıyırlar.

2. Dini qurumun illik büdcəsi idarəetmə orqanı tərəfindən təsdiqlənməlidir və həmin büdcəyə uyğun fəaliyyət göstərməlidir.

3. Daxili maliyyə hesabatları müntəzəm olaraq hazırlanmalı və idarəetmə orqanına təqdim edilməlidir.

4. Dini qurum qanunla nəzərdə tutulmuş mühasibat uçotu və audit prosedurlarının peşəkar standartlarına riayət etməli, bütün maliyyə və hesabat tələblərini yerinə yetirməlidir.

**B. Qanuna uyğunluq**

1. Dini qurumun fəaliyyəti, idarəetməsi və digər məsələlər qanun və qaydalara uyğun olmalıdır. Dini qurum fəaliyyət məqsədlərinə uyğundursa, həmin qanun və qaydaların dəyişdirilməsi ilə bağlı təkliflər verə bilər.

2. Dini qurum özünün təşkilati sənədlərinin müvafiq qanunvericilik aktlarına uyğun olmasına əmin olmaq üçün hüquqi yardım almalı və zərurət yarandığı hallarda vəkil xidmətlərinə müraciət etməlidir.

3. Dini qurum vaxtaşırı olaraq fəaliyyətinin müvafiq qanunvericilik aktlarına uyğunluğu ilə bağlı daxili araşdırma aparmalı və onun xülasəsi idarəetmə orqanının üzvlərinə təqdim edilməlidir.

## VIII. Maliyyə yardımı toplamaq

Dini qurumlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağa olunmayan xərcləri—maliyyələşdirmək, məqsədlərinə çatmaq üçün qanunvericilik çərçivəsində təşkilatlardan, donorlardan, dövlət və özünüidarəetmə orqanlarından könüllü ianə və maliyyə dəstəyi ala bilər.

**A. Ümumi prinsiplər**

1. Dini qurumun rəhbərliyi maliyyə yardımı toplanılmasında və bu məqsədlə müraciətlərin edilməsində və fərdi töhfələrin verilməsində fəal olmalıdır.

2. Dini qurum yalnız öz fəaliyyət məqsədlərinə uyğun gələn, onun əsas prinsiplərini pozmayan, müvafiq məsələləri sərbəst, hərtərəfli və obyektiv həll etmək imkanlarını məhdudlaşdırmayan maliyyələşməni qəbul edə bilər.

3. Dini qurum vəsaitlərin toplanması və onlardan istifadə ilə bağlı bütün məsələlərdə dürüst olmalıdır.

4. Layihələr dini qurumların fəaliyyət məqsədlərinə cavab vermək üçün hazırlanmalı və heç vaxt sadəcə maliyyə mənbəyinin ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmamalıdır.

5. Dini qurum bir layihə üçün ayrılmış maliyyə vəsaitinin şişirdilməsi, ayrılmış vəsaitin təsdiq edilmiş layihədən başqa istifadəyə yönəldilməsi və s. kimi qanunazidd və qeyri-etik fəaliyyətlərə yol verməməlidir.

**B. Tələblər**

1. Dini qurum bütün müraciət və təşviqat materiallarının dəqiq olmasına, öz fəaliyyət məqsədlərini planlarının aydın və düzgün təqdim edilməsinə diqqət yetirməlidir.

2. Dini qurum donorların potensial hədiyyələrin vergi təsirləri ilə bağlı dəqiq məlumat almasını təmin etməlidir.

3. Qəbul edilmiş ianələr dini qurumların fəaliyyət məqsədlərinə və nizamnamələrinə uyğun xərclənməlidir.

4. Müəyyən bir məqsəd üçün maliyyə vəsaiti ictimai şəkildə toplanıldıqda, yığılmış vəsaitin idarə edilməsi planı hazırlanmalı və müvafiq hallarda müraciətə artıq qalan vəsaitin necə istifadə ediləcəyi barədə məlumat daxil edilməlidir.

**C. Vəsaitlərin istifadəsi**

1. Dini qurum ianələrin vəd edildiyi, vəsait toplama müraciətlərində nəzərdə tutulduğu və ya donorlar tərəfindən elan edilmiş məqsədlər üçün istifadə olunmasını təmin etməlidir.

2. Dini qurum qrant qəbul etdikdə, razılaşdırılmış qaydada layihələr həyata keçirmək üçün müqavilə bağlayır, eyni zamanda bu öhdəliyə əməl etmək üçün etik və hüquqi məsuliyyət daşıyır.

3. Dini qurum hədiyyənin və ya qrantın şərtlərini yalnız donorun razılığını almaqla dəyişdirə bilər.

4. Dini qurum qrantların və maliyyə yardımlarının səmərəli istifadəsini təmin etməlidir.

**D. Məsuliyyət**

1. Dini qurum qrant xərclərini izləmək üçün mütəşəkkil sistem yaratmalıdır.

2. Qurum vəsaitlərin istifadəsi və idarə olunması haqqında vaxtında hesabatlar təqdim etməlidir.

3. İanələrə dair maliyyə hesabatları donorun və maraqlı tərəflərin sorğusu əsasında verilməlidir.

**E. Donorla münasibət**

1. Dini qurumun rəhbərliyi, təsisçiləri, işçiləri və könüllüləri donor və ya potensial donorla heç bir münasibətdən şəxsi mənfəət və ya hər hansı qohumun, həmkarın mənafeyi üçün istifadə etməməlidirlər.

2. Donor və ya ianə ilə bağlı məxfi məlumat icazəsiz digər şəxslərə açıqlanmamalıdır.

3. Donorun məxfiliyinə hörmət edilməlidir, dini qurum donor və ya ianə ilə bağlı məxfi məlumatı qorumalıdır.

4. Dini qurum fərdlər və donorlar haqqında məlumatların toplanması, istifadəsi, maraqlı tərəflərin həmin məlumatları nəzərdən keçirmək və onlarda düzəlişlər tələb etmək hüquqları, fərdin şəxsi məlumatlarının yayılmasının məhdudlaşdırılması mexanizmləri barədə ictimaiyyətə açıq və asanlıqla əldə edilən məxfilik qaydalarına malik olmalıdır.

5. Dini qurum və ya onun nümayəndələri öz çağırışlarında həddindən artıq təzyiq, məcburiyyət, yersiz təsir və ya digər qeyri-etik vasitələrdən istifadə etməməlidirlər.

## IX. Tərəfdaşlıq və əməkdaşlıq

Dini qurumlar digər vətəndaş cəmiyyəti təşkilatları, hökumət və kommersiya təşkilatları ilə əməkdaşlıq edə bilərlər. Ümumi rifah naminə bu cür əməkdaşlıq xidmətlərin təkrarlanmasını azalda və resurslardan rəqabətli məqsədlər üçün istifadəni aradan qaldıra bilər. Əməkdaşlıq müxtəlif güclü tərəfləri və resursları birləşdirməyə, prioritetlərin həllində effektivliyi artırmağa imkan verə bilər. Bununla belə, dini qurum yalnız öz məqsədlərinə uyğun olduqda belə bir əlaqə qura bilər.

**A. Tərəfdaşlıq və əməkdaşlığın ümumi prinsipləri**

1. Dini qurum fəaliyyət məqsədlərinə uyğun olduğu təqdirdə digər qurumlarla əməkdaşlıq etməlidir.
2. Dini qurumun əməkdaşlıq fəaliyyəti ümumi dəyərlər və əsaslar, cəmiyyətin rifahı naminə həyata keçirilməlidir.
3. Dini qurumun əməkdaşlığı maliyyə şəffaflığına, ikitərəfli məlumat, ideya və təcrübə mübadiləsinə imkan verməlidir.
4. Əməkdaşlıq dəyişikliyə uyğun olmalıdır. Münasibətlərdə dəyişikliklər əməkdaşlıq yolu ilə inkişaf etdirilməlidir, bu və ya digər təşkilat tərəfindən əməkdaşlığa məcbur edilməməlidir.

**B. Digər dini qurumlar və vətəndaş cəmiyyəti təşkilatları ilə əlaqələr**

1. Ortaq dəyərləri və hədəf qrupları olan dini qurumlar ümumi məqsədlərə nail olmaq üçün səmərəli olarsa, bir-biri ilə və digər vətəndaş cəmiyyəti təşkilatları ilə əməkdaşlıq etməlidirlər.
2. Üst-üstə düşən məqsədləri, dəyərləri və hədəf qrupları olan dini qurumlar bir-biri ilə və digər vətəndaş cəmiyyəti təşkilatları ilə rəqabətdən, xidmətlərin lüzumsuz təkrarlanmasından, bir-birinin layihələrinin pozulmasından çəkinməlidir.
3. Üst-üstə düşən məqsədləri, dəyərləri və hədəf qrupları olan dini qurumlar müvafiq layihə məlumatlarını digər dini qurumlar və vətəndaş cəmiyyəti təşkilatları ilə bölüşməli, eyni zamanda bir-birini dəstəkləməlidir.
4. Dini qurum digər dini qurumların kampaniyaları və hərəkətləri ilə həmrəylik nümayiş etdirməli, dini qurumun bütövlüyünə və ya dəyərlərinə xələl gətirmədikdə, digər dini qurumların fəaliyyətinin effektivliyini və uğurunu təşviq etməlidir.

**C. Dövlət qurumları ilə əlaqələr**

1. Dini qurum dövlət qurumları ilə tərəfdaşlıq müqaviləsini yalnız dini qurumun məqsədlərinə nail olmaq üçün faydalı olduqda və təşkilatın müstəqilliyinə xələl gətirmədikdə bağlamalıdır.
2. Dini qurum dövlət qurumları ilə dialoqa və əməkdaşlığa çalışmalıdır ki, bu cür əməkdaşlıq həm məqsədəuyğun, həm də qarşılıqlı faydalı olsun, dini qurumun gündəliyindəki məsələlər və prioritetlərin həllində effektivliyini artıra bilsin.
3. Dini qurum yalnız dini qurumun davamlılığını və ya rəqabət üstünlüyünü təşviq etmək üçün dövlət qurumları ilə tərəfdaşlığa girməməlidir. Dövlət qurumları ilə əməkdaşlıq digər dini qurumlar üzərində üstünlük qazanmağa və ayrı-seçkiliyə rəvac verməməlidir.
4. Dini qurum siyasi partiyaların fəaliyyətində iştirak etməməlidir.

**D. Mənfəət əməkdaşlığı**

Dini qurum öz məqsədlərinə nail olmaq üçün müstəqilliyinə xələl gətirmədikdə və qanunvericiliyə zidd olmadığı halda kommersiya təşkilatları ilə əməkdaşlıq edə bilər.